# QARABAQ ƏRAZİSİNDƏKİ *BARBAREA ARCUATA* NÖVÜNÜN FAYDALARI

**Gülnarə Quliyeva**

*Gəncə Dövlət Universiteti, gulnara.quliyeva.79@gmail.com*

Qarabağ ərazisi flora və fauna müxtəlifliyinə görə respublikamızın zəngin ərazilərindəndir. Qarabağın hər dağında, dərəsində nemət sayılan yüzlərlə faydalı bitki növünə rast gəlinir. İnsanlar bu bitkilərdən həm qida kimi, həm də müalicəvi baxımdan istifadə edirlər. Dağların ətəyində, dərə kənarlarında bitən adi vəzərək də çox faydalı bitkidir. Adi vəzərək 30-80 sm hündürlüyündə mil kök sisteminə malik ikiillik ot bitkisidir. Gövdəsi çılpaq və hündür şaxələnmiş olur. Çiçəkləri salxım əmələ gətirən ikicinsli sarı rəngdədir. Toxumları oval yapıxmış boğunuq qəhvəyi rəngdə olur. Adi vəzərək yaz və ilkin yay dövründə çiçəkləyir, iyun və iyul aylarında meyvə verir. Bar verdikdən sonra bitkinin yerüstü hissəsi tamamilə məhv olur və kökdən yeni çiçəkləyən və bar verən gövdə əmələ gəlir. Bu bitki toxum və kök sistemi vasitəsilə çoxalır. İl ərzində 10000-ə qədər toxum əmələ gəlir. Toxumun böyüməsi üçün minimal temperatur 6-8$^{o}$C,maksimal temperatur 38-40$^{o}$C-dir. Toxumlar yayda, payızda və yazın əvvəlində 0,5 sm-dən 4 sm-dək dərinlikdən cücərə bilir. Həyat dövrünün birinci ilində qışlaya bilən mil kök və alt yarpaqlar əmələ gəlir. Bitki həm mezofit, həmdə mezotrofdur. Kölgəli sahələrdə də böyüyə bilir. Meşə sahələrində alaq otu kimi tanınır.

Boyatmanın ilkin dövründə vəzərək herbisidlərə (kimyəvi maddələrə) daha həssas olur. Toxumun tərkibindəki maddələr iribuynuzlyu heyvanlar, at və ev quşları uçün zərərlı ola bilər.

Qövsvarı vəzərək balverən bitkidir. Yazda, yayın əvvəlində çiçək açır və arılar onun toz və şirəsindən qidalanır. Balı yaşılımtıl sarı rəngdə, zərif xoş ətirlidir. Vəzərək balının tərkibində qlükoza çox olduğundan onun tez bərkiməsinə səbəb olur. Bu isə arıların qışlaması üçün əlverişsizdir. Qövsvari vəzərəkdən təbabətdə dərman bitkisi kimi də istifadə olunur. Tibbi məqsədlər üçün bitkinin yerüstü hissəsi götürülür. Yarpaqları askorbin turşusu, toxumları tioqlikozidlərlə zəngindir. Vəzərəyin yarasağaldıcı və güclü sidikqovucu təsiri vardır, iştahı artırır. Dərman məhsulu kimi gövdəsi, yarpaqları və çiçəyi istifadə olunur. Onlar kölgədə, havalı yerdə qurudulur, kağız və taxta qutularda saxlanılır. Saxlanma müddəti 1 ildir. Kulinariyada vəzərəyin yaşıl hissəsindən şorba, püre və qarnir kimi istifadə olunur. Onun cavan yarpaqları xardal tamı verir. Həddindən artıq qidalandıqda zəhərlənmə baş verə bilər.